Xalq qəzeti .- 2023.- 11 yanvar.

Ekoaksiyanın gündəliyi

# Şuşa–Xankəndi yolu alınmaz qaladır

**Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, “Qızılbulaq” və “Dəmirli” yataqlarında monitorinqlərin aparılmasına icazə verilməsini tələb edən azərbaycanlı ekofəalların Laçın–Xankəndi yolunda keçirdikləri etiraz aksiyası artıq bir aydır ki, davam edir. Aksiyaçılar sivil qaydalar çərçivəsində yüksək əzmkarlıq nümayiş etdirirlər.**







Havanın qarlı-şaxtalı olmasına baxmayaraq, onlarda dirəniş əzmi, coşğu var. Aksiya zamanı təhlükəsizlik qaydalarına riayət olunur, heç bir neqativ təmas və insident müşahidə edilmir.

Etirazçıların toplaşdığı ərazidən keçən yolda sərbəst hərəkətə heç bir maneə yoxdur. Yol humanitar məqsədlər üçün tam açıqdır. Rusiya sülhməramlılarına məxsus avtomobillərin Xankəndidən Laçın istiqamətinə maneəsiz hərəkətinə və digər humanitar məqsədlərə şərait yaradılır. Həmçinin, Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus avtomobillərin də aksiya ərazisindən keçidi təmin olunub.







Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, politoloq İlyas Hüseynov “Xalq qəzeti”nə müsahibəsində bildirdi ki, Laçın-Xankəndi yolunda ekoloqlarımızın başladığı aksiyada təbii sərvətlərimizin qanunsuz istismarına və qaçaqmalçılığa son qoyulması əsas tələblərdən biri kimi qalmaqdadır: “Etirazlar heç bir siyasi məqsədə xidmət etmir. Yalnız ekoloji fəsadların aradan qaldırılması, “Qızılbulaq” və “Dəmirli” yataqlarına ekoloqların daxil olub monitorinqlərin həyata keçirilməsi kimi tələblər səsləndirilir. İlk növbədə, Laçın yolu vasitəsilə qeyri-humanitar məqsədlərə xidmət edən fəaliyyətin dayandırılması Azərbaycanın ərazi bütövlüyünə hörmət və eyni zamanda, separatçı meyillərin qarşısının alınması üçün atılan ciddi addımdır. Rusiya sülhməramlı kontingentinin komandanı, general-mayor Andrey Volkov əraziyə gəlmədikcə və ekoloqlarımızın sözügedən yataqlarda monitorinqləri həyata keçirilmədikcə, digər tələblər də yaranacaq.

İlyas Hüseynovun fikrincə, Azərbaycanın Daxili İşlər Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsinin birgə iştirakı ilə nəzarət-buraxılış məntəqələrinin formalaşdırılması ən doğru qərar olardı. Çünki üçtərəfli birgə Bəyanatda Laçın yolu üzərində Azərbaycanın suverenliyi konkret göstərilib.

Ekspert Laçın yolu vasitəsilə diversantlar, ərazi pozucularının minalar, silah-sursat və ağır texnika daşımalarının üçtərəfli Bəyanata, beynəlxalq hüquq və müqavilələrə zidd olduğundan və bunun yolverilməzliyindən də danışdı: “Üçtərəfli Bəyanatın 4-cü maddəsinə əsasən, Ermənistan silahlı qüvvələrinin qalıqları bölgəni tərk etməli və Rusiya sülhməramlıları bölgəyə yerləşdirilməli idi. Sülhməramlılar bölgəyə yerləşdirilsə də, erməni silahlıları hələ də ərazilərimizdədir və separatçı fəaliyyətlə məşğul olurlar. Ərazilərimizdə Ermənistanın 2021-ci il istehsalı olan minalara rast gəlinməsi bunun sübutudur. Məqsəd aydındır, niyyətləri Azərbaycanın infrastrukturuna, mülki şəxslərimizə və hərbçilərimizə ziyan vurmaq, xəsarət yetirməkdir. Buna görə də Azərbaycan öz təhlükəsizliyini müdafiə etməlidir”.

Politoloq separatçıların və onlara havadarlıq edənlərin baş verən prosesləri humanitar faciə kimi dünyaya car çəkmələrinə baxmayaraq, aksiyanın mühüm nəticələr hasil edəcəyinə əmindir. O, Kanada, Litva, Estoniya kimi bir sıra dövlətlərin xarici işlər nazirliklərinin qərəzli bəyanatlar qəbul etməsini də təəssüf hissi ilə şərh etdi: “Bu bəyanatlardan aydın olur ki, həmin ölkələrin müvafiq orqanları regiondakı proseslərdən elə də məlumatlı deyillər. Ermənistan qəsdən dünya ictimaiyyətində çaşqınlıq yaradır. Erməni lobbisinin çirkli pullarla ələ aldıqları siyasətçilər də yalan üyütməyə məcburdur, qərəzli və məkrli kampaniyanın iştirakçısına çevrilirlər. Eyni zamanda, Fransanın dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının toplantısı çağırıldı. İclasda Xankəndi yolunda baş verən hadisələrlə bağlı müzakirələr aparıldı. Azərbaycan diplomatiyası burada da öz qətiyyətini göstərdi. Belə ki, cənab Prezidentimizin müdrik siyasəti sayəsində Albaniya, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Rusiya kimi dövlətlər Fransanın qərəzli təşəbbüsünə qarşı çıxdılar.

**Rizvan FİKRƏTOĞLU,**
**“Xalq qəzeti”**